# Elmi və ictimai fəaliyyətin işığında

*Hər dövrün özünün səssiz qəhrəmanları olur - onların izi xidmətlə, müdrikliklə və insan sevgisi ilə tanınır. Zərifə Əliyeva da məhz belə şəxsiyyətlərdən biridir. Onun fəaliyyəti, bir elm adamının uğur yolu, bir millətin sağlam gələcəyi üçün səylə çalışan bir qadının həyat salnaməsidir.*

Zərifə Əliyeva 20-ci əsrin ikinci yarısında Azərbaycan oftalmologiya elminin aparıcı simalarından biri kimi tanınmış, bu sahədə bir sıra fundamental tədqiqatlara imza atmışdır. Onun elmi araşdırmaları xüsusilə peşəkar göz xəstəliklərinin profilaktikası və müalicəsi istiqamətində yeni yanaşmalar təqdim etmiş, əmək şəraiti ilə bağlı oftalmoloji risklərə dair müasir konsepsiyalar irəli sürmüşdür. O, uzun illər ərzində Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda çalışaraq bir çox yeniliklərin tətbiqinə nail olmuş, bu sahədə Azərbaycan tibb elminin beynəlxalq səviyyədə tanınmasında mühüm rol oynamışdır.

Onu qeyd etməliyik ki, Zərifə xanım Əliyeva oftalmologiya elmini yalnız tədris və tədqiqat obyektinə çevirmədi - o, bu sahəni bir növ "insan gözünün, dolayısıyla ruhunun sağalması" kimi dərk edirdi. Onun tədqiqatlarının əsas hədəfi təkcə görmə qabiliyyətinin bərpası yox, həm də insanların sosial rifahına töhfə vermək idi. Xüsusilə istehsalatda işləyən insanların göz sağlamlığı məsələsinə toxunması, onu sıravi bir tədqiqatçıdan fərqləndirirdi. O, elmi öz laboratoriyasından çıxarıb, real həyatın içərisinə daşıyan bir alim idi.

Zərifə Əliyeva dövrünün beynəlxalq elmi mühitində tanınan alimlərindən biri olmuşdur. Onun elmi əsərləri müxtəlif xarici jurnallarda dərc olunmuş, beynəlxalq simpozium və konfranslarda təqdim edilmişdir. Bu fəaliyyət nəticəsində Azərbaycan oftalmologiyası dünya elminə inteqrasiya olunmuşdur.

Alim göz xəstəliklərinin erkən mərhələdə aşkarlanmasına xidmət edən metodikaların hazırlanmasında mühüm rol oynamışdır. Onun elmi rəhbərliyi ilə aparılan tədqiqatlar sayəsində postoperativ dövrdə yaranan iltihabi fəsadların qarşısının alınması və cərrahi müdaxilələrin effektivliyinin artırılması mümkün olmuşdur.



O, 20-dən çox namizədlik və doktorluq dissertasiyasına rəhbərlik etmiş, Azərbaycan oftalmologiyasında davamlı elmi məktəb formalaşdırmışdır. Bu məktəbin nümayəndələri bu gün də elmi-tədqiqat və klinik praktika sahələrində uğurla fəaliyyət göstərirlər.

Akademik Zərifə Əliyevanın elmi fəaliyyəti bütövlükdə cəmiyyətin sağlamlıq anlayışına elmi yanaşmanın formalaşmasına təsir göstərmişdir. Onun elmi irsi bu gün də aktuallığını qoruyur, oftalmologiya sahəsində tədqiqatçılar üçün dayanıqlı nəzəri və metodoloji mənbə rolunu oynayır.

İctimai-siyasi fəaliyyətinə gəlincə, burada da Zərifə xanımın səsi səssiz, lakin təsirli idi. O, qadının ictimai həyatda rolunu, ailə və peşə balansını, yüksək mənəvi dəyərləri ilə təqdim edirdi. Klassik tribuna çıxışlarından uzaq, lakin davranışı və fəaliyyəti ilə cəmiyyətə mesaj verən bir nümunə idi. Onun timsalında Azərbaycan qadını bir tərəfdən elm aləmində uğur qazana biləcəyini, digər tərəfdən isə ailə və cəmiyyət qarşısında məsuliyyətini unutmadan həyatını qurmağın mümkün olduğunu gördü.

Akademik Zərifə Əliyeva elmi fəaliyyətlə yanaşı, pedaqoji sahədə də fəal çalışmış, bir çox gənc tədqiqatçının formalaşmasında mühüm rol oynamışdır. O, tələbələrə yalnız bilik deyil, həm də elmə, insana və cəmiyyətə xidmət ruhu aşılamışdır. Onun rəhbərliyi ilə gənc alimlər elmi prinsiplərindən bəhrələnərək uğurlu karyera yolu keçmişlər. Zərifə Əliyeva tibb təhsilinin keyfiyyətinin artırılmasına, tələbələrin praktik və nəzəri biliklərə yiyələnməsinə xüsusi önəm vermişdir.

Zərifə Əliyeva göz xəstəliklərinin erkən diaqnostikası və effektiv müalicə üsullarının hazırlanması istiqamətində bir sıra mühüm tədqiqatlar aparmışdır. Onun rəhbərliyi ilə oftalmoloji cihazların təkmilləşdirilməsi və müasir texnologiyaların tətbiqi sahəsində mühüm nəticələr əldə olunmuşdur. Bu işlər göz xəstəliklərinin daha dəqiq və vaxtında müəyyənləşdirilməsinə, eləcə də daha təsirli müalicə metodlarının tətbiqinə şərait yaratmışdır.

Akademik Zərifə Əliyeva 150-yə yaxın elmi əsərin, 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, 1 ixtira, 12 səmərələşdirici təklifin müəllifi və həmmüəllifidir. Onun "Cərrahi əməliyyatlardan sonra gözün iltihabi fəsadları", "Peşə amillərinin təsiri ilə yaranan göz xəstəlikləri" kimi əsərləri həm Azərbaycan, həm də beynəlxalq oftalmologiya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Akademikin "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" və digər monoqrafiyaların elmi müstəvilərdə özünəməxsus yeri var. Bu əsərlər illərdir ki, tibb tələbələri, həkim-rezidentlər və mütəxəssislər üçün əsas dərs vəsaiti kimi istifadə olunur. Akademik Zərifə Əliyeva həm elm, həm cəmiyyət, həm də ailə üçün dəyərli bir şəxsiyyət idi. O, öz fəaliyyəti ilə sübut etdi ki, qadın həm nüfuzlu alim, həm də dəyərli vətəndaşdır.

Zərifə Əliyeva, eyni zamanda maarifçilik fəaliyyəti ilə də fərqlənirdi. O, əhalinin sağlamlıq mədəniyyətinin yüksəldilməsi, qadınların tibb sahəsində fəallığının artırılması istiqamətində ictimai təşəbbüslərlə, müxtəlif tribunalardan çıxışlar edirdi. Bu baxımdan akademikin ictimai fəaliyyəti də müasirlərinin dərin rəğbətini qazanmışdır. Belə ki, Zərifə Əliyeva ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Zərifə Əliyeva bir sıra orden və medallara layiq görülmüş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adını almışdır.

Zərifə Əliyeva ailə mühitində - ana, həyat yoldaşı və ömürgün yoldaşı olaraq - zəmanəsinin ali nümunələrindən biri idi. Ulu öndər Heydər Əliyevin həyat yoldaşı olmaq, sadəcə şəxsi münasibət deyil, eyni zamanda ictimai yük daşımaq demək idi. Bu yükü o, ləyaqətlə daşıdı, arxa planda qalmadan, lakin önə çıxmaq iddiası olmadan. Akademik Zərifə Əliyevanın zəka, mərhəmət və yüksək insani dəyərlərlə zəngin xarakterində özünü büruzə verən bu xüsusiyyətlərinə diqqət yetirən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev qeyd edib: "Azərbaycan xanımının mənəvi dəyərlərini özündə təcəssüm etdirən Zərifə xanım bir qadın, bir həyat yoldaşı, bir ana, bir həkim, bir alim, bir ictimai xadim olaraq elə sağlığında əfsanələşməyi bacarıb və daşıdığı bu titulları mərhəmət, şəfqət, humanizm kimi ali hisslərlə bütövləşdirərək əsl insanlıq zirvəsinə yüksəlib".

Zərifə xanımın həyatı - bir həkimin, bir alim qadının və bir vətəndaşın harmoniya içində yaşaya biləcəyinin canlı sübutudur. O, bizə göstərdi ki, elmi bilik və insani duyğu, intellekt və mərhəmət, peşəkarlıq və sadəlik bir yerdə mövcud ola bilər.

**Azər ALLAHVERƏNOV,**
**Milli Məclisin deputatı.**